# SÖZƏ SƏDAQƏT YOLUNDA



Uzun illər adını eşidib, üzünü görmədiyim (fotoşəkillər xaric) Vaqif Yusifli. Tale elə gətirdi ki, onun rəhbərlik etdiyi "Ədəbi tənqid şöbəsi"nin əməkdaşı oldum. İlk gündən xarakterində olan dürüstlük, işinə sevgi, səmimi rəftarı ilə diqqətimi cəlb etdi Vaqif müəllim.Daha sonralar isə onun sadə təbiətininə sığan böyük alimliyi məni heyran etdi. Təvazökarlıq onun ruhuna biçilmiş libasdır desəm fikrimi daha dəqiqliyi ilə çatdırmış olaram.

Vaqif Yusifli tələbəlik illərindən (1968-ci ildən) dövri mətbuatda çıxış edir. Az bir müddətdə müəllim işləmiş(1972-1975) olsa da, xarakterində olan ziyalı, müəllim cizgiləri onun həyat motividir. "Müasir Azərbaycan nəsrində konflikt və xarakter" mövzusunda namizədlik (1979), "Müasir Azərbaycan poeziyasında ənənə və novatorluq"(2011) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Vaqif Yusifli "Nəsr, konfliktlər, xarakterlər", "Məmməd Araz dünyası", "Ürəyimi sərdim günəşə", "Tənqid yarpaqları", "Bu nə sehrdir belə", "Tənqid və bədii söz", "Tənqid də yaradıcılıqdır", "Rəsul Rza və müasir Azərbaycan poeziyası", "Şeirimizin Nərimanı", "Poeziya və zaman" və sairə kimi kitabların müəllifidir. Müasir ədəbi prosesdə fəal iştirak edən görkəmli tənqidçi "Əməkdar mədəniyyət işçisi" fəxri adı, "Tərəqqi" medalı, M.Araz ədəbi mükafatı, R.Rza beynəlxalq ədəbi mükafatı, Aydın Məmmədov ədəbi mükafatlarına layiq görülüb. Müasir Azərbaycan ədəbi tənqidinə gətirdiyi yeniliklərlə yanaşı, ədəbi prosesdə və elmi mühitdə Yusifli imzasının özünəməxsus rolu var. Tənqidçi kimi qərəzlilik onun prinsiplərinə yaddır, əksinə, ədəbi mühitə yeni gələn gənclərə qayğısını, gərəkli məsləhətlərini əsirgəmir. Nəyin səhv, nəyin düz olduğunu ən kiçik detallarınadək açıqlamağı özünə borc bilir. Yeni tənqidçi nəsli üçün əsl məktəbdir Vaqif Yusifli. Bu günlərdə 75 yaşını qeyd edənustad tənqidçi elm yolunda əzmlə çalışır. Paytaxtla yanaşı, bölgələrdə də şair və yazıçılarla daima əlaqədə olması, təbiətində olan çalışqanlıqdan xəbər verir. "Bölgələrdə ədəbi həyat", "Şabran ədəbi mühiti" kitabları məhz bu əməksevərlikdən yaranmışdır.

Vaqif Yusifli Azərbaycan ədəbiyyatında ədəbi tənqidin əsas simalarından biri olmaqla, həm də şeiriyyat vurgunudur. Klassik ədəbiyyata vurğunluğu, onu dərindən mənimsəməsi onun gənclik eyforiyasıdır. Poeziya və nəsr üzrə tədqiqatlarının mənəvi dəyəri onun üçün hər şeydən ucadır. Bəzən təbi gələndə şeir və qəzəllərləkeçən günləri təzələməyi də bacarır qocaman ədəbiyyatşünas.- Vaqif Yusifli yola saldığı illəri böyük məmnunluqla xatırlayır. Böyük ədib və elm xadimləri ilə ilk tanışlığı, onlarla həmsöhbət olduğu tarixləri fəxr hissi ilə yada salır. Çöhrəsinə çökən xoş təbəssüm dolu dolğun baxışlar həmin görüşlərin unudulmaz olduğuna əminlik yaradır.Qələm onun ən yaxın dostu, sirdaşı, silahdaşıdır. Söz və qələm onun üçün ayrılmaz ikilidir desəm yanılmaram. Söz çəkisinin ağırlığını, mahiyyətini dəyərində xərcləməyi bacarır Vaqif müəllim.

Vaqif Yusifli dostlarına qarşı hörmət, sədaqət sahibidir. Bəzən onu arayan dostları ilə ilk tanışlığından bəhs edən zaman, gah gülümsəyir, gah da səma kimi buludlanırqocaman tənqidçinin siması. Doğmalarına qayğısını əsirgəməyən, davranışı və həyat tərzi ilə çoxlarına nümunə olacaq insandır. Tabeliyində olan işçilər onun qayğısını hiss etməklə yanaşı, yeri gəldikdə ciddi tənqidinin də şahidi olurlar. Bu zaman Vaqif Yusifli tənqidçi mənafeyindən çıxış edərək, əsaslı mövqe ortaya qoymaqla özünü çağdaş nəslə nümunə olacaq səviyyədə sərgiləyir. Keçən günlərin ab-havasını saxlamaqla, milli-mənəvi dəyərlərə müasir prizmadan yanaşır, onları olduğu kimi qiymətləndirir. Bu gün Vaqif müəllim televiziya ilə, mətbuatla sıx əməkdaşlıq edir, şöbə əməkdaşları olaraq, tez-tez ondan alınan müsahibələrin şahidi oluruq.Bizə cilalanmış söz, fikir məsuliyyətinin dərsini keçir Vaqif Yusifli. Gələcək nəsillərə "Vaqif Yusifli-"imzasını hədiyyə etmək çox gözəl hissdir.Uzun və sağlam ömür arzu edirəm sizədəyərli insan, ustad tənqidçi, görkəmli ədəbiyyatşünas.



*Əsmər Hüseynova,*
*AMEA Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutu,*
*Ədəbi tənqid şöbəsi, böyük elmi işçi.*

Kredo .- 2023.- 13 aprel.- S.1.